İFTİXAR

# *İşıqlı, Nurlu Sabah...*

*(ikihissəli publisistik, xronikal, mənzum dastan)*

- 23334 -

Azərbaycan Respublikası Prezidentinin
İşlər İdarəsi
PREZİDENT KİTABXANASI

«APOSTROFF»
BAKI – 2013



AZƏRBAYCAN XALQININ ŞANLI ÖVLADI,
MÜSTƏQİL AZƏRBAYCAN DÖVLƏTİNİN
MEMARI, ÇAĞDAŞ DÜNYANIN GÖRKƏMLİ
SİYASİ XADİMİ, ÜMUMMİLLİ LİDER
HEYDƏR ƏLİRZA OĞLU ƏLİYEVİN
ANADAN OLMASININ 90 İLLİK
YUBİLEYİ MÜNASİBƏTİ İLƏ ƏZİZ
XATİRƏSİNƏ İTHAF OLUNUR.



«HEYDƏR ƏLİYEV SİYASƏTİNİN
UĞURLA HƏYATA KEÇİRİLMƏSİ
MÜSTƏQİLLİYİMİZİ MÖHKƏMLƏNDİRİR,
DÖVLƏTÇİLİYİMİZİ QÜDRƏTLƏNDİRİR!»

*AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ*
*İLHAM ƏLİYEV*



«AZƏRBAYCANIN
DÖVLƏT MÜSTƏQİLLİYİ
ƏBƏDİDİR, DÖNMƏZDİR,
SARSILMAZDIR!»

*HEYDƏR ƏLİYEV*




**HƏR HANSI BİR XALQIN TARİXİNİ ONUN ARXİVLƏRİ, MUZEYLƏRİ, TARİX BOYU YARATDIĞI ƏSƏRLƏR ƏKS ETDİRİR.**

*HEYDƏR ƏLİYEV*



# İşıqlı, Nurlu Sabah...

*(ikihissəli publisistik, xronikal, mənzum dastan)*



J-25



Baş məsləhətçi:
İRŞAD ƏLİYEV

**İFTİXAR** (İvtixar Fəhrat oğlu Piriyev)

P52 «**İŞIQLI, NURLU SABAH...**
*(ikihissəli publisistik, xronikal, mənzum dastan)*
Bakı, «**APOSTROFF**», səh. 152.

**ISBN 978-9952-404-29-6**

B.e.ə 3-cü minillikdən, Arattadan başlayan dövlətçilik tariximizin keşməkeşli yolundan, bu tarixin şanlı səhifəsi olan müstəqillik dövrümüzün bərpa olunması prosesindən və bu prosesdə Ulu Öndər Heydər Əliyevin müstəsna xidmətlərindən, Heydər Əliyev Fondunun işıqlı fəaliyyətindən və ölkənin birinci xanımı, fondun prezidenti Mehriban Əliyevanın ölkə daxilində və ölkədən kənarda böyük vüsət alan xeyirxah əməllərindən, Azərbaycan xalqının Ümummilli Liderinin həyatından, onun insani cəhətlərindən və siyasi fəaliyyətindən, estafeti etibar etdiyi möhtərəm prezidentimizin istər daxili, istərsə də xarici siyasətinin günbəgün geniş istiqamətdə inkişaf edən uğurlarından bəhs edən bu mənzum əsər, ölkə başçısı, müasir Azərbaycanın qurucusu, zati-aliləri cənab İlham Əliyevin 50 illik yubileyi münasibətilə cənab İrşad Əliyevin təşəbbüsünə əsasən yazılmış, C. Cabbarlı adına İrəvan Dövlət Azərbaycan Dram Teatrının səhnəsində tamaşaya hazırlanmış və premyerası Beyləqan rayonunda açıq havada yaradılmış "Azərbaycan Dövlətçilik Tarixi Muzeyi"nin interyerində 29 dekabr 2012-ci il tarixində uğurla oynanılmışdır.

Kitab geniş oxucu kütləsi üçün nəzərdə tutulmuşdur.

***Kitabın istifadəsi ilə bağlı bütün müstəsna hüquqlar müəllifə məxsusdur.***

© İFTİXAR, 2013





# *MÜƏLLİF SÖZÜ*

*"İşıqlı, nurlu sabah" mənzum pyesim yazılana qədər ulu öndər Heydər Əliyev haqqında ilk dəfə qələmə aldığım "Böyük Turanın Himni" himn-poemam kitab şəklində çapdan çıxdı. O poemada ümummilli liderimizin həyatının müxtəlif məqamları tərənnüm olunurdu. Sonra həmin poema "Müstəqil Vətənin Memarı" poeması ilə əvəzləndi. Bu poema on bir dilə tərcümə olunaraq üç kitab halında – azərbaycan və türk dilləri birinci kitab, rus, ingilis, alman, fransız, italyan, ispan dilləri ikinci kitab, ərəb, fars və ərəb əlifbası ilə azərbaycan dilində isə üçüncü kitab kimi çapa hazır vəziyyətə gətirildi. Kitab çapa getməmiş Azərbaycanın böyük ziyalısı və dövlət xadimi İrşad Əliyevin Beyləqan ra-*

*yonunda, açıq havada, daş abidələrlə yaratdığı "Dövlətçilik Tarixi Muzeyi"ndə Azərbaycanın 3-cü minillikdən-Arattadan bu günə-müstəqillik dövrümüzə qədərki bir tarixi əhatə edən daş kitabələr üzərinə həkk olunmuş salnaməni canlandıran misilsiz mənzərəni gördükdən və İrşad müəllimin "muzeydə görünən bu möhtəşəm tarixi sözün və teatr sənətinin dili ilə canlandırmaq əsl vətənpərvərlikdir, gedin, düşünün" sözlərindən sonra öncə böyük sevgi ilə "İşıqlı, nurlu sabah" mənzum pyesi yarandı. Sonra bu pyes C.Cabbarlı adına İrəvan Dövlət Azərbaycan Dram Teatrının kollektivinin böyük zəhməti bahasına gözəl səhnə əsərinə çevrildi və premyerası Beyləqan rayonunda, "Dövlətçilik Tarixi Muzeyi"ndə uğurla oynanıldı. İrşad müəllim burada ən mötəbər bir tamaşaçı kimi tamaşanı seyr edirdi. Mən kənardan onu izləyirdim. İrşad müəllimin yaratdığı bu misilsiz*





*muzeyin söz və teatr sənətinin arqanik vəhdətində özünü necə də həmahəng tapdığından aldığı həzzi sezirdim və bu mənim ruhuma rahatlıq enerjisi səpirdi. Çünki həm yaranmış ümumi işin qənaətbəxşliyi, həm də həyata keçirilən xoşniyyətli məsələnin mahiyyətində dayanan ümummilli təəssübkeşlik mövqeyi ruhi rahatlığın laylay simfoniyası qədər alidir.*

*Bu məsələdə İrşad müəllim üç böyük və müqəddəs işin həyata keçməsinin təminatçısı həddində özünə mövqe tutdu. Birincisi o, respublikamızda ilk dəfə dövlətimiz, xalqımız və dövlətçiliyimiz üçün çox böyük əhəmiyyət kəsb edən "Dövlətçilik Tarixi Muzeyi"ni yaratdı, ikincisi bu hadisənin ədəbi əsərə çevrilməsi üçün "İşıqlı, nurlu sabah" adlı bir mənzum pyesin və səhnə əsərinin yaranmasının təşəbbüskarı oldu, üçüncüsü isə xalqımızın, dövlətçiliyimizin,*

- 23339 -
Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi
PREZİDENT KİTABXANASI

*azərbaycançılıq məfkurəmizin monumental fenomeni ətrafında birləşmələr, xalqımıza sədaqətlə xidmət etməkdə ulu öndər Heydər Əliyevin simasında onun polad tökümlü ideyalarının gücündə və ölkə başçısının sağlam əməllərində aydınlanan işığın ətrafında birləşməyə səsləyən böyük bir çağırışın məntiqi həqiqətinin bir müqəddəs mətləb kimi təsir qüvvəsinə çevrilməsi istiqamətində idraka təsir etmək qüdrətinə nail oldu. Tamaşanın sonunda bir yumruq kimi birləşən xalqımızın ölkə başçısının açdığı yolla onunla bərabər gələcəyə doğru istiqamət alan kütləvi hərəkət mənzərəsi bütün deyilənlərin teatr ifadə vasitəsi ilə canlı tərənnümünü yaradırdı.*

*Fikrimcə hər iki əsərin – həm muzeyin, həm də "İşıqlı, nurlu sabah"ın ərsəyə gəlməsi Azərbaycan dövlətçiliyinın tarixi üçün, onun ən parlaq səhifələrindən olan ulu*





*öndər Heydər Əliyevin müstəqilliyimizin əldə olunmasında, onun qorunmasında və inkişaf edə bilməşində yaratdığı böyük siyasi yolun sarsılmaz bünövrəsinin təməlinin tərənnümü qismində daim irəliləyən, dünya birliyi ailəsində ən önəmli yerdə mövqe tuta bilən, müasir dünyamızın inkişaf dinamikasında öndə dayanan siyasi qələbələrimizin, əldə etdiyimiz iqtisadi, mədəni inkişafımızın incələnərək tərənnüm tablosuna çevrilməsi baxımından kifayət qədər mükəmməl və parlaq təsir qüvvəsinə malik bir sənət nümunəsi kimi ərsəyə gələn bir bədii əsərin meydana çıxa bilməsi üçün İrşad Əliyevin yaratdığı ruh yüksəkliyi xalqımızın gələcək həyatının təntənəsini qoruyub saxlaya bilməsi baxımından çox böyük xidmət nümunəsidir.*

*İrşad Əliyev bu gün Kürdəmir rayonunda da "Dövlətçilik Tarixi Muzeyi"nin yaranmasına start vermişdir. Bu-*

*rada yaradılan muzeyin ərazisi daha geniş bir meydanı əhatə edir və daha yeni baxış bucağında özünü ifadə edə biləcək bir formada təqdim olunur.*

*Biz "İşıqlı, nurlu sabah..." əsərinin tamaşasını, tamaşa əvvəlcədən ölkə başçısının əlli illiyi yubileyinə həsr olunduğu üçün 24 dekabr 2012-ci il tarixində Kürdəmir rayonunda da oynadıq. Bu dəfə tamaşa "Dövlətçilik Tarixi Muzeyi"nin tikintisi başa çatmadığı üçün "Qələbə" parkının interyerində oynanıldı. Dövlətçilik tariximizin qüdrətinin cövhərini ifadə edən və heç vaxt sarsılmayan qələbə əzmimizin məntiqinin tərənnümünü yaradan tamaşanın məzmunu bu rayonda inşasına başlanmış olan "Dövlətçilik Tarixi Muzeyi"nin məzmun vəhdəti ilə həmahəng olduğunu açıq-aydın diqtə edirdi.*

*Biz bu tamaşanı Bakı, Balakən, Sabirabad, İmişli, Cəlilabad tamaşaçıları qarşısında da oynamışıq və həqiqət naminə qeyd etməliyəm ki, əsər nə qədər dövlətçilik tariximizi, onun şanlı səhifəsi olan müstəqillik dövrümüzü, Ulu Öndərin sarsılmaz fəaliyyətini, cənab Prezidentin işıq sürətli quruculuq işlərini, Heydər Əliyev Fondunun xeyirxahlıq missiyasını və ən başlıcası bütün bu işlərin kökündə xalqımızda qələbə əzmi yaratmaq missiyası dayanan fikri ehtiva edirsə, bir o qədər də dövlətçilik tariximizin aydın mənzərəsinin üzə çıxması üçün "Dövlətçilik Tarixi Muzeyi"nin bütün bölgələrdə yaradılmasının misli-bərabəri olmayan bir həmrəylik missiyasının dolğun hədd ala biləcəyinə böyük təkan yaratdığını təlqin edir.*





## İŞTİRAKÇILAR:

Heydər Əliyev
Gənc Heydər Əliyev
Gənc Zərifə Əliyeva
İlham Əliyev
Mehriban Əliyeva
Tarix (gah meydanda, insanlar arasında görünür, gah da qeybdən səsi eşidilir).
Nurani Qoca
I Vətən oğlu
I Vətən qızı
II Vətən oğlu
II Vətən qızı
III Vətən oğlu
III Vətən qızı
I Çıraqlı – Aratta dövləti
II Çıraqlı – Lullubi dövləti





III Çıraqlı – Kuti dövləti
IV Çıraqlı – Manna dövləti
V Çıraqlı – Atropatena dövləti
VI Çıraqlı – Albaniya dövləti
VII Çıraqlı – Sasanilər və ərəb əsatiri
VIII Çıraqlı –Şirvanşahlar dövləti
IX Çıraqlı – Sacilər dövləti
X Çıraqlı – Salarilər dövləti
XI Çıraqlı – Şəddadilər dövləti
XII Çıraqlı – Rəvvadilər dövləti

*Hadisələr 20-ci əsrin axırları, 21-ci əsrin əvvəllərində, Azərbaycan adlı böyük bir ölkənin şimal qütbündə cərəyan edir.*

# BİRİNCİ HİSSƏ

Gözlərimiz önündə bir meydan canlanır. Meydanda budaqları qurumuş, lakin gövdəsində hələ də pöhrələr görünən nəhəng, yaşı bəlli olmayan və gövdəsi mağara kimi oyulmuş palıd ağacı görünür. Həmin palıd ağacının altında, meydanın ortasında odu sönmüş, külü sovrulmuş, kösövü qaralan bir ocaq var. Hava nisbətən qaranlıqdır. Qaranlıq havanı yalnız uzaq ulduzların buludların arxasından sezilən işartısı və Ayın zəif ışığı azacıq işıqlandırır. Hərdənbir eşidilən göy gurultusu və hərdənbir görünən bəmbəyaz şimşək parıltısı ulduzların və Ayın zəif işığı içində nur kimi görünür. Bu parıltı altında meydanda qaralan ocaq çox miskin görünür. Göy gurultusunu eşidən insanlar, palıd ağacının gövdəsindəki yuvadan çıxaraq, əllərində çıraq meydana toplaşmağa başlayırlar. Hardansa, Qobustan qayalarının - qaval daşın səsi ətrafa yayılır. İnsanlar qaval daşın ritmi altında, ocağın dövrəsində əllərində çıraq Tanrıya sitayişlə dualar söyləyir, çıraqlardan ocağa od salmağa çalışırlar. Qədim insanlar kimi rəqs edirlər. Qaval daşın ritmlərinin içindən sıyrılıb meydana yayılan Soltan Hacıbəyovun "Karvan" simfonik muğamı qeybdən eşidilən Tarixin səsinə qarışır. Tarixin səsi meydandakı insanların qan yaddaşını oyadır və insanlar öz tarixi keçmişlərini axtarmağa, onun həqiqətlərini aydınlatmağa başlayırlar.





**Tarix**

Tariximiz qədimdir,
Uludur millətimiz!
Bu tarixdən yarandı,
Müstəqil dövlətimiz!

Tarixin səsi ətrafda əks-sədaya çevrilir. İnsanlar çıraqla Tarixin səsini axtarmağa başlayırlar. Nurani Qoca önə çıxır, ocağa yaxınlaşır. Ana Vətənə müraciətlə, insanları ətrafına səsləyir.

## Nurani Qoca

Əsrlərin o üzündən yol gələn,
Aydın səma, açıq bəniz, ağ bulud,
Şah vüqarım, iftixarım, fərəhim,
Ana Vətən! Dədə Ocaq! Ata Yurd!

Əlindəki çırağı ocağa tutur. Ocaq çırağın alovundan od almağa başlayır. Bunu görən insanlar Nurani Qocanın ətrafına toplanır, ocağa yaxınlaşır, əllərindəki çırağı ocağa tutur və Nurani Qocanın çırağından ocağa düşmüş odu daha da alovlandırmağa çalışırlar. Hər bir çıraq ocağa yaxınlaşdıqca, Çıraqlı insanlar hayqırır.

### I Çıraqlı

Aratta dövləti – b.e.ə. 3-cü minillik!





### II Çıraqlı

Lullubi dövləti – b.e.ə. 3-cü minillik!

### III Çıraqlı

Kuti dövləti – b.e.ə. 3-cü minillik!

### IV Çıraqlı

Manna dövləti – b.e.ə. 843 – 590-cı illər!

### V Çıraqlı

Atropatena dövləti – b.e.ə. 4-cü əsrin 20-ci,
b.e.-nın 227-ci illəri!

## VI Çıraqlı

Albaniya dövləti – b.e.ə. 4-cü əsrin sonu, 3-cü əsrin əvvəli – b.e.-nın 262 ili!

## VII Çıraqlı

Sasanilər və ərəb əsarəti – 3 – 9-cu əsrlər!

## VIII Çıraqlı

Şirvanşahlar dövləti – 861– 1538-ci illər!

## IX Çıraqlı

Sacilər dövləti – 879–941-ci illər!





## X Çıraqlı

Salarilər dövləti – 941– 981-ci illər!

## XI Çıraqlı

Şəddadilər dövləti – 971–1067-ci illər!

## XII Çıraqlı

Rəvvadilər dövləti – 981–1065-ci illər!

Çıraq-İnsanların hayqırtısını eşidən Vətən Oğulları və Vətən Qızları meydana axışmağa başlayırlar və hayqırtıya qoşulurlar.

**I Vətən Oğlu**

Atabəylər dövləti - 1136 - 1225-ci illər!

**I Vətən Qızı**

Qaraqoyunlu dövləti - 1410–1468-ci illər!

**II Vətən Oğlu**

Ağqoyunlu dövləti - 1468–1501-ci illər!

**III Vətən Qızı**

Səfəvilər dövləti - 1501–1736-ci illər!





**II Vətən Oğlu**

Xanlıqlar dövrü - 18– 19-cu əsrlər!

**III Vətən Qızı**

Çar Rusiyasının tərkibində - 19–20-ci əsrlər!

**IV Vətən Oğlu**

Azərbaycan Demokratik Cümhuriyyəti –
1918–1920-ci illər!

**IV Vətən Qızı**

Azərbaycan Sovet Sosialist Respublikası –
28 aprel 1920 –18 oktyabr 1991-ci illər!

## Nurani Qoca

Müstəqil Azərbaycan Respublikası - 1991-ci il!

Vətən Oğulları, Vətən Qızları və Çıraq-İnsanlar meydanda bir-birinin səsinə səs verərək, od saldıqları ocağın dövrəsində, Nurani Qocanın ətrafında bərqərar olurlar. Tarixin səsi ətrafa yayılır. Hamı Tarixin səsinə diqqət kəsilir.

## Tarix

Dövlətçilik tarixi
Bizim eradan əvvəl
Üçüncü minillikdən
Yol alıb bizə gələn,
Kəşməkəşlərdən keçən,
Neçə qanlı savaşa
Qeyrətlə sinə gərən,
Sinəsi dəlik-dəlik,
Sinəsi şırım-şırım.
Sinəsi pölük-pölük,





Torpağı bölük-bölük,
Qəhrəman, həm əzmli
Meydanda tək savaşan,
Azərbaycan milləti,
Sən heç vaxt unutma ki,
Sənin bir vətənin var!
Poladdan da dözümlü,
Azərbaycan dövləti!
Poladdan da dözümlü,
Azərbaycan dövləti!

**I Vətən Oğlu**
*(yenicə alovlanmağa başlayan ocağa müraciət edir)*

Hər qayanda, hər daşında izim var,
Hər havanda, hər nəğməndə sözüm var,
Hər obanda, ocağında közüm var,
Ana Vətən! Dədə Ocaq! Ata Yurd!
Meydandakılar bu müraciətə qoşulurlar.

**X o r**

Ana Vətən! Dədə Ocaq! Ata Yurd!

**I V ə t ə n Q ı z ı**
*(ocağa müraciətlə)*

Addım-addım, qarış-qarış daraldın,
Zaman-zaman yarpaq kimi saraldın,
Ovuc boyda torpaq kimi qaraldın,
Ana Vətən! Dədə Ocaq! Ata Yurd!

**X o r**

Ana Vətən! Dədə Ocaq! Ata Yurd!

**II V ə t ə n O ğ l u**

Qara bağda qara baxta qar yağdı,
Qıy qopardı, qəm oxudu Qaryağdı,





Qan ağladım, gözlərimdən qor yağdı,
Ana Vətən! Dədə Ocaq! Ata Yurd!

**X o r**

Ana Vətən! Dədə Ocaq! Ata Yurd!

**II V ə t ə n Q ı z ı**

Sən babasan, mən neçə min qardaşam,
Tarixinə həkk olunan yaddaşam,
Qoyma məni yaddan çıxam, yadlaşam,
Ana Vətən! Dədə Ocaq! Ata Yurd!

**X o r**

Ana Vətən! Dədə Ocaq! Ata Yurd!

III Vətən Oğlu

İrəvanda, Borçalıda çapıldın,
Qobustanda qayalara yapıldın,
Mən Dərbənddən, sən Təbrizdən tapıldın,
Ana Vətən! Dədə Ocaq! Ata Yurd!

Xor

Ana Vətən! Dədə Ocaq! Ata Yurd!

III Vətən Qızı

Aramızdan Araz boyda çay axdı,
Günəş batdı, ulduz söndü, ay axdı,
Daha bəsdi, gör neçə qış, yay axdı,
Ana Vətən! Dədə Ocaq! Ata Yurd!





Xor

Ana Vətən! Dədə Ocaq! Ata Yurd!

Nurani Qoca

Sərvətinə tamah salan çox oldu,
İgidlərin yaydan qopan ox oldu,
Savaş yapdın, düşmənlərin yox oldu,
Ana Vətən! Dədə Ocaq! Ata Yurd!

Xor

Ana Vətən! Dədə Ocaq! Ata Yurd!

Nurani Qoca

Ömür baha, Vətən ömürdən baha,
Bir haraya sarılaram silaha,

Bu savaşı qoyma qalsın sabaha,
Ana Vətən! Dədə Ocaq! Ata Yurd!

**Xor**

Ana Vətən! Dədə Ocaq! Ata Yurd!

**IV Vətən Oğlu**

Bu tarixdə zaman adlı karvanam,
Bu karvana yol göstərən sarvanam.
Torpağında kəsiləsi qurbanam,
Ana Vətən! Dədə Ocaq! Ata Yurd!

**Xor**

Ana Vətən! Dədə Ocaq! Ata Yurd!





**IV Vətən Qızı**

Yaraşaram tarix adlı yaşına,
Gecə-gündüz dolanaram başına,
Qurban ollam torpağına, daşına,
Ana Vətən! Dədə Ocaq! Ata Yurd!

**Xor**

Ana Vətən! Dədə Ocaq! Ata Yurd!

**I Vətən Oğlu**

Tarixlərə həkk olundu ismimiz,
Tarix oldu dövlətimiz, irsimiz.
Yaxşı baxın bu tarixə indi siz,
Ana Vətən! Dədə Ocaq! Ata Yurd!

**X o r**

Ana Vətən! Dədə Ocaq! Ata Yurd!

**I Vətən Qızı**

Hələ mənim iti görən gözüm var,
Biləyim var! Kürəyim var! Dizim var!
Sən darıxma, dizlərimdə dözüm var,
Ana Vətən! Dədə Ocaq! Ata Yurd!

**X o r**

Ana Vətən! Dədə Ocaq! Ata Yurd!

**II Vətən Oğlu**

Bir ahından göyə çıxar göynərtim,
Bir naləndən göyüm-göyüm göynərdim.





Heç bilmirəm, sən olmasan neynərdim?
Ana Vətən! Dədə Ocaq! Ata Yurd!

**X o r**

Ana Vətən! Dədə Ocaq! Ata Yurd!

**II Vətən Qızı**

Bu torpaqda millətinlə min yaşa!
Hikmətinlə, qüdrətinlə çıx başa!
İmzanı yaz hər qayaya, hər daşa!
Ana Vətən! Dədə Ocaq! Ata Yurd!

**X o r**

Ana Vətən! Dədə Ocaq! Ata Yurd!

### III Vətən Oğlu

Neçə kərə çınqıl kimi dağıldın,
Tənha qaldın, çapaladın, boğuldun,
Sən axırda dövlət kimi yığıldın,
Ana Vətən! Dədə Ocaq! Ata Yurd!

### Xor

Ana Vətən! Dədə Ocaq! Ata Yurd!

### III Vətən Qızı

Bu tarixdə xoş günümüz az oldu,
Günəş doğdu, qar əridi, yaz oldu,
Ruhumuzu oxşayan tar, saz oldu,
Ana Vətən! Dədə Ocaq! Ata Yurd!





### Xor

Ana Vətən! Dədə Ocaq! Ata Yurd!

### IV Vətən Oğlu

Bir gün bizim ağacımız göyərdi,
Bu gün üçün qəm çəkməyə dəyərdi,
Tanrı bizə al Günəşi göndərdi,
Ana Vətən! Dədə Ocaq! Ata Yurd!

### Xor

Ana Vətən! Dədə Ocaq! Ata Yurd!

### IV Vətən Qızı

Bu millətin qan yaddaşı oyandı,
Yumalandı, bir yumruqda dayandı,

O yumruqda torpaq adlı od yandı!
Ana Vətən! Dədə Ocaq! Ata Yurd!

**X o r**

Ana Vətən! Dədə Ocaq! Ata Yurd!

**N u r a ni Q o c a**

Hər savaşdan sarsılmayan heyrətim,
Damarımda coşan qanım, qeyrətim,
Azərbaycan, misrim, cəngim, heyratım!
Ana Vətən! Dədə Ocaq! Ata Yurd!

**X o r**

Ana Vətən! Dədə Ocaq! Ata Yurd!





**N u r a n i Q o c a**
*(insanlara müraciətlə)*

Azərbaycan –
bu məmləkət mənim Atam, mənim Anam!
Mən bu yurdun sinəsindən
şimşək kimi doğulmuşam!
Azərbaycan,
səni candan, qandan sevən bir övladam,
Mən daşınla, torpağınla,
mən südünlə yoğrulmuşam.

Sürətlə palıd ağacına tərəf gedir və oyuğa daxil olur. Göy gurultusu qopur, parlaq bir şimşək çaxır. Hər tərəf bəmbəyaz rəngə boyanır. Palıd ağacının oyuğundan yeni doğulan uşaq səsi ətrafa yayılır. Meydandakı bütün insanlar uşaq səsinə diqqət kəsilir. Uşaq səsi yavaş-yavaş həzin bir musiqiyə, həzin musiqi isə getdikcə qəhrəmanlıq marşına çevrilir. Palıd ağacının gövdəsindəki oyuqdan əlində çıraq tutmuş ucaboylu bir insan meydana tərəf gəlir. Yenidən dəli bir şimşək çaxır. Bütün aləm bəmbəyaz rəngə boyanır və şimşəyin işığında meydana tərəf gələn İnsanın Heydər Əli-

yev olduğu görünür. Şimşəyin bəmbəyaz işığı göylərdə donur və Yer üzü nura qərq olur. Gecə qaranlığının bağrını dələn şimşəyin nuru yavaş-yavaş Günəş işığına çevrilir. Heydər Əliyev meydandakı ocağa yaxınlaşır. Meydandakı insanlar əllərində çıraq Heydər Əliyevin dövrəsinə toplaşırlar.

**I Vətən Oğlu**
*(üzünü Heydər Əliyevə tutur və böyük ehtiramla)*

Şimşək kimi doğuldun
Naxçıvandan cahana.
Tanrı nicat göndərdi
Səni Azərbaycana

**I Vətən Qızı**

Körpə ikən güc aldın,
Sən Tanrının özündən.
Tanrı ziyası ilə
Nur ələndi gözündən.





**Xor**

Bulaq kimi qaynadın,
Axdın, dənizə döndün.
Vətənin göylərində
Günəş kimi göründün.

**I Çıraqlı**

Gözlərini dünyaya
Açanda, məğrur açdın.
Adın dillərdə gəzdi,
Eldən elə dolaşdı.

**Tarix**

Ömür bir yol başladı,
Öz atını sürməyə.
Tanrı tale göndərdi,
Öz hökmünü verməyə.

## X o r

Bu yol hamar olmadı,
Sel, daşqın oldu bu yol.
Min cür qaranlıqlarla,
Əzabla doldu bu yol.

## II Ç ı r a q l ı

Bu yol ağrıdan keçdi,
Acıdan keçdi bu yol.
Borandan, qardan keçdi,
Tufandan keçdi bu yol.

## III Ç ı r a q l ı

Bu yolda dərd də oldu,
Qəm də oldu bu yolda.
Bu yolda zil də oldu,
Bəm də oldu bu yolda.





## IV Ç ı r a q l ı

Bu yol hardan keçsə də,
Şərəfli oldu bu yol.
Bu yol uğurla doldu,
Şöhrətli oldu bu yol.

## T a r i x

Bu yol haqqın yoluydu,
Ağrı-acı sovuşdu.
Həqiqətin yoluydu,
Həqiqətə qovuşdu.

## V Ç ı r a q l ı

Yenilməz qala oldun,
Darda yetdin haraya.
Ağa qara demədin,
Ağ demədin qaraya.

### VI Çıraqlı

Zülməti yara-yara
İz açdın, öndə getdin.
Yollara nur ələdin,
Özün də nura yetdin.

### VII Çıraqlı

Ülvi əməllərinlə
Şanlı tarix yaratdın.
Siyasət meydanında,
Ali zirvəyə çatdın.

### VIII Çıraqlı

Müqəddəs mətləb seçdin,
Özünü oda atdın.
Oddan-alovdan keçdin,
Xalqın dadına çatdın.





### Tarix

*(meydana daxil olur. Qollarını geniş açıb meydanda var-gəl edərək təlaşla danışır)*

Ölkə parçalanırdı –
Şimal, cənub, şərq, qərb.
Bir yandan talanırdı,
Bir yandan da qanlı hərb.

Bu kiçik məmləkətdə
Hərənin öz marağı.
Xalqın haray səsinə
Yetdi Heydər sorağı.

### II Vətən Oğlu

Xalqı xilas etməyə
Vaxtında gəldi çatdı.
Vətəndaş çarpışması
Ağlın hökmüylə yatdı.

## Xor

Xalqı xilas etməyə
Vaxtında gəldi çatdı.
Vətəndaş çarpışması
Ağlın hökmüylə yatdı.

## IX Çıraqlı

Heydər hər vətəndaşa
Öz canından can verdi.
Öz şərəfli ömrünü,
Xalqına qurban verdi.

## X Çıraqlı

Hər əzaba qatlaşdı,
Daim sülhə can atdı,
Keçilməz sədlər aşdı,
Milli dövlət yaratdı.





## II Vətən Qızı

Əsrin neft kontraktı
Cəsarətdən doğuldu.
Bakı, Tiflis və Ceyhan
Müqəddəs amal oldu.

## XI Çıraqlı

Dünyanın diqqətini
Bu torpağa cəmlədi.
Bu müqəddəs amala
Özü uğur dilədi.

## III Vətən Oğlu

Bakı, Tiflis, Ərzurum
Tikilən qaz kəməri,
Bakıdan Avropaya
Mavi alov nəməri.

### XII Çıraqlı

Tarixi İpək yolu
Yenidən yaradıldı.
Bu da bir tarixdir ki,
O yolu Heydər saldı.

### Tarix

Heydər Əliyev yolu
Həqiqətin yoludur!
Bu yol haqqın yoludur,
Ədalətin yoludur!

### III Vətən Qızı

Hər tərəf onu sıxdı,
Amma o sıxılmadı.
Zülməti yardı çıxdı,
Bir an da yıxılmadı!





### IV Vətən Oğlu

Zehni, ağlı, zəkası,
Sel kimi aşdı-daşdı!
Müdrik məntiqi ilə,
Açılmaz düyün açdı!

### IV Vətən Qızı

Nadir siyasi ustad,
Gərdişin sirrin duydu!
İncə siyasət ilə,
Dünyanı heyran qoydu!

### I Vətən Oğlu

Başda elm çələngi,
Yolu sabaha doğru.
Dühaların nəhəngi,
Heydər Əlirza oğlu!

### III Çıraqlı

Ümummilli liderdir!
Azadlıq bayrağıdır!
Düşmənə sinə dağı,
Dosta sülh çırağıdır!

### IV Çıraqlı

Körpələrin sevinci,
Məzlumların hamisi,
Müstəqil ölkəmizin,
Qurucusu, banisi!

### V Çıraqlı

Müstəqillik memarı,
Firavan həyat qurdu!
Vətən, torpaq, millət, xalq,
Rəzalətdən qurtuldu!





### VI Çıraqlı

O, Heydər Əliyevdir!
Xalqın imanı, dini!
Xətainin nəvəsi!
Böyük Turanın himni!

### VII Çıraqlı

Dədə Qorqud, Alpamış,
Ədalət abidəsi,
Milli ruh, milli barış –
Elin Heydər Dədəsi.

### Xor

Dədə Qorqud, Alpamış,
Ədalət abidəsi,
Milli ruh, milli barış –
Elin Heydər Dədəsi.

## VIII Çıraqlı

Türkün rəmzi nişanı,
Manas, Orxon–Yenisey!
O, Heydər Əliyevdir!
Öyrəndikcə, öyrən hey!

## IX Çıraqlı

Şərqə doğan Günəşin,
Şəfəqləri parlayır.
Sönməz parlaqlığını,
Bütün aləmə yayır!

## X Çıraqlı

O, Heydər Əliyevdir!
Mənalı həyat görən!
Müstəqil dövlət quran!
Şərəfli ömür sürən!





## Tarix

Heydər Əliyev yolu! –
Bu yol millət yoludur!
Müstəqillik yoludur!
Bu yol dövlət yoludur!
Heydər Əliyev yolu! –
Bu yol millət yoludur!
Müstəqillik yoludur!
Bu yol dövlət yoludur!
"Heydər – Xalq"dır, "Xalq – Heydər!"
Müqəddəs kitabədir.
Möhtəşəm, ulu rəhbər
Əl çatmayan qübbədir.

## Xor

"Heydər – Xalq"dır, "Xalq – Heydər!"
Müqəddəs kitabədir.
Möhtəşəm, ulu rəhbər
Əl çatmayan qübbədir.

Heydər Əliyev xalq kütləsinin içində məğrur-məğrur dayanaraq xalqın fikirlərini dinləyir. Dinlədikcə, xəyal onu ömrünün ən dəyərli anları hesab etdiyi Zərifə xanımla bərabər yaşadıqları illərin xoşbəxt anlarına aparır. Həmin illər kino lenti kimi gözləri önündə canlanır.

### I Vətən Qızı

Könlündə eşq atəşi
Fenomenə çevrildi.
Mövqeyi aydın, qəti
Sevildikcə sevildi.





### Heydər Əliyev

*(Gənc Heydərlə Gənc Zərifə gözləri önündə canlanır. Onlar əl-ələ tutaraq xalq kütləsi ilə bərabər ocağın ətrafında dövrə vururlar.*
*Öz-özünə, pıçıltı ilə xatırlayır)*

Qadağalar qoydular
Bir vaxt sevgidə mənə.
Öz eşqimdən dönmədim,
Mən inad etdim yenə.

### II Vətən Oğlu

Bu, bir inad deyildi,
Eşqə sədaqət idi!
Fenomenə çevrilən,
Ülvi məhəbbət idi!

### Gənc Zərifə Əliyeva

Küçələrə su səpdim,
Yar yolu toz olmasın.
Yeni çiçəklər əkdim,
Ətri heç vaxt solmasın!
Gələndə "Heydər" dedim,
Oxşadım uşaq kimi.
Gedəndə "Heydər" dedim,
Yola saldım şah kimi.

### Tarix

Çətində də Heydəri,
Andı Zərifə xanım!.
Öz şamının oduna,
Yandı Zərifə xanım!.
Bahar gəldi, yaz gəldi,
Bağçalar bar gətirdi.
Heydər– Zərifə eşqi,
Yeni nübar gətirdi!





### Gənc Zərifə Əliyeva

*(bir an dayanır, Gənc Heydərdən ayrılır, müdrik Heydər Əliyevə tərəf gəlir və üzünü ona tutaraq fərəhlə söyləyir)*

İki övlad böyütdüm,
Vətənə, xalqa layiq!
Hər biri bir nümunə,
Hər biri ayıq-sayıq!

Heydər Əliyev vaxtilə Zərifə xanım üçün oxuduğu "Küçələrə su səpmişəm" xalq mahnısını zümzümə edir. O oxuduqca, Gənc Zərifə Əliyeva ilə Gənc Heydər Əliyev xalq kütləsinin arasına qarışır və görünməz olurlar. Heydər Əliyev bir müddət xəyaldan ayrıla bilmir.

### II Vətən Qızı

Dillərdə dastan oldu
Heydər – Zərifə eşqi.
Zirvəyə gedən yoldu
Heydər – Zərifə eşqi.

### III Vətən Oğlu

Qüdrətli simfoniyadı,
Heydər - Zərifə eşqi.
Canlı harmoniyadı,
Heydər - Zərifə eşqi.

### III Vətən Qızı

Gələndə "Heydər!" dedi,
Gəldi Zərifə xanım!
Gedəndə "Heydər!" dedi,
Getdi Zərifə xanım!

### Heydər Əliyev

Bu da bir ömür idi,
Məhəbbətlə yaşandı.
Sədaqətdən yoğruldu,
Dəyanətlə daşındı.





Bir topa insan üçrəngli Azərbaycan bayrağı ilə Heydər Əliyevi dövrəyə alır. Meydandakı insanlar Heydər Əliyevin başı üzərində dalğalanan üçrəngli bayrağın altında, Heydər Əliyevin ətrafında sıx toplaşırlar.

### IV Vətən Oğlu

Göylərdə dalğalandı,
Azərbaycan bayrağı!
Bu bayraqdan od aldı,
Ana yurdun çırağı!

### XI Çıraqlı

Meydanda dönməz, mətin,
Səngərdə dəmir sipər.
Siyasətdə yanılmaz,
İti göz, sonsuz təpər.

**XII Çıraqlı**

Şərəfinə oxunur,
Qəhrəmanlıq nəğməsi:
"Xalq Heydərin səsidir!
Heydər də xalqın səsi!"

**Xor**

"Xalq Heydərin səsidir!
Heydər də, xalqın səsi!"

Xalq bu sözləri xorla, nəğmə kimi oxuyur.

**IV Vətən Qızı**
*(üzünü xalqa tutur)*

Əfsanəvi qəhrəman,
Azadlıq yolu getdi.
Tökülən qanı kəsdi,
Səadətlər bəxş etdi.





**I Vətən Oğlu**
*(Heydər Əliyevə xitabən)*

Möhtəşəm kürsülərdə,
Cəsarətlə danışdın.
Azərbaycan adıyla,
Böyük sərhədlər aşdın.

**Heydər Əliyev**

Həmişə fəxr etmişəm,
Mən azərbaycanlıyam!
Bu gün də fəxr edirəm,
Mən azərbaycanlıyam!

**I Vətən Qızı**
*(Heydər Əliyevə xitabən)*

Həm sərkərdə, həm insan,
Həm qılıncsan, həm qələm.
Hər sözün, hər söhbətin
Ziya dolu bir aləm.

**II Vətən Oğlu**
*(xalqa xitabən)*

Üçrəngli bayraq kimi,
Məğrur-məğrur canlanır.
Təpədən dırnağadək
Vətən eşqiylə yanır.

**II Vətən Qızı**

O, Heydər Əliyevdir!
Əzaba sinə gərən.
O, Heydər Əliyevdir,
Ömrünü xalqa verən.

**Heydər Əliyev**
*(əyilərək bayrağı öpür. Ayağa qalxaraq məhəbbətlə xalqa səslənir)*

Ömrümün ilk anından
Xalqımla yol gedirəm.





Ömrün qalanını da,
Xalqıma bəxş edirəm!

**I Çıraqlı**
*(üzünü Heydər Əliyevə tutur)*

Bir an geri dönmədin
Müqəddəs niyyətindən.
Bir an ayrı qalmadın
Sevimli millətindən.

**II Çıraqlı**

Şəninə nəğmə dedi
Saz da, kaman da, tar da.
Məlahətlə oxundu,
Şur da, Rast da, Qatar da.

### III Vətən Oğlu

Tanrı şah əsərini,
Yazanda "Heydər!" yazdı,
"Müstəqil Azərbaycan!"–
Onu da Heydər yazdı.

### Heydər Əliyev

*(əlini xalq kütləsinin arasında dayanmış İlham Əliyevə tərəf uzadır. İlham Əliyev irəliyə yeriyir. Heydər Əliyev əlini İlham Əliyevin kürəyinə qoyur, xalqa xitabən)*

Özümə inanantək,
Mən ona inanıram!
Buna tam əminəm ki,
Müstəqillik uğrunda
Mənim tutduğum yolu
O davam etdirəcək!
Dövlət üçün, xalq üçün,
Vətən üçün mən sona
Çatdıra bilmədiyim





Öz həllini gözləyən
Müqəddəs mətləbləri
Yerinə yetirəcək!
Mənim müdrik millətim!
Mənim qəhrəman xalqım!
Sən ona etibar et!
Sabaha İlhamla get!

### Xor

Mənim müdrik millətim!
Mənim qəhrəman xalqım!
Sən ona etibar et!
Sabaha İlhamla get!

İlham Əliyev əyilərək Azərbaycan bayrağını öpür. Ayağa qalxaraq farağat dayanır, sağ əlini ürəyinin üstünə qoyaraq Azərbaycanın Himnini oxumağa başlayır. Hamı farağat dayanır, əlləri ürəklərinin üstündə, bir ağızdan Azərbaycanın Himnini oxuyur.

## X o r

Azərbaycan, Azərbaycan!
Ey qəhrəman övladın şanlı
Vətəni!
Səndən ötrü can verməyə cümlə
hazırız!
Səndən ötrü qan tökməyə cümlə
qadiriz!
Üç rəngli bayrağınla məsud
yaşa!

Minlərlə can qurban oldu!
Sinən hərbə meydan oldu!
Hüququndan keçən əsgər,
Hərə bir qəhrəman oldu!





Sən olasan gülüstan,
Sənə hər an can qurban!
Sənə min bir məhəbbət
Sinəmdə tutmuş məkan!

Namusunu hifz etməyə,
Bayrağını yüksəltməyə,
Cümlə gənclər müştaqdır!
Şanlı Vətən! Şanlı Vətən!
Azərbaycan! Azərbaycan!

*B i r i n c i  h i s s ə n i n  s o n u*



## İKİNCİ HİSSƏ

Azərbaycanda bahardır. Ən uca yerdə Azərbaycan bayrağı dalğalanır. Meydan bayram əhval-ruhiyyəsi ilə bəzədilmişdir. İnsanlarda gözəl ovqat sezilir. Palıd ağacının budaqlarında yamyaşıl tumurcuqlar göyərir. Meydanda böyük quruculuq işlərinin getdiyi aydınca görünür. Meydandakı ocaq məşəl kimi yanır.

**T a r i x**
*(qeybdən səsi eşidilir)*

Etibarlı, güvənli,
Ləyaqətli, vicdanlı,
Sədaqətli bir ələ
Tapşırıldı estafet!..
Bu bir ulu insanın
Ürəyinin səsiydi!
Könlünün diqtəsiydi!





Öz sevimli xalqına
Müdrik tövsiyəsiydi!
Elə ona görə də,
Bu xalq inanır ona–
İlham Heydər oğluna!

İnsanlar meydanın yuxarı hissəsində ucaldılmış Heydər Əliyevin abidəsi qarçısına toplaşıblar. Öncə ölkə prezidenti İlham Əliyev və ölkənin birinci xanımı Mehriban Əliyeva abidənin önünə əklil dəstələri qoyurlar. Sonra xalq kütləsi əklilqoymanı davam etdirir. Xalq Ulu Öndəri yad etdikcə, onun haqqında düşündüklərini dilə gətirirlər.

**III V ə t ə n Q ı z ı**

Müdrik insan, peyğəmbər,
Tanrısından güc aldı.
Cahan boyu boy atdı,
And yerinə ucaldı.

## IV Vətən Oğlu

Əbədi yanan çıraq,
Ən ali insan oldu.
Əfsanəvi qəhrəman,
Tarixi dastan oldu.

## IV Vətən Qızı

Gecə-gündüz çalışdı,
Sinə gərdi çətinə.
İşıqlı yol yaratdı,
Xalqına, millətinə.

## III Çıraqlı

Öz əliylə oyatdı,
Xalqın qan yaddaşını.
Min il bundan sonranın,
Qoydu təməl daşını.





Onun parlaq ziyası
Min-min ürəkdə yandı...
*(o çıxış etdikcə, Tarixin səsi insanların ruhuna yayılmağa başlayır).*

## Tarix

Ruhu rahat, firavan,
Qəlbi kövrək, qayğıkeş,
Amalı düz, işıqlı,
Əməli nur, mehriban,
Ürəyi saf, xeyirxah,
Məramı xoş, gülərüz,
Yolu aydın, ziyalı
Əliyeva Mehriban–
İnamlı arzuları
Günbəgün aşıb-daşan
O nur bənizli insan
Səsimizi ucaltdı
Mötəbər kürsülərə,
İmzamızı daşıdı

Ən ali zirvələrə!
Onun məhəbbətilə
Mənəvi ruh oyandı,
Milli-mənəvi dəyər
Ön cərgədə dayandı.

**Mehriban Əliyeva**

Heydər Əliyev Fondu
Bu, bir zirvə, bir inci,
Kimsəsizin hamisi,
Körpələrin sevinci.

Alqışlarla qarşılanan bu çıxışdan sonra ölkə başçısı və ölkənin birinci xanımı xalqa qarışır. Onlar şəhərin küçələri ilə irəlilədikcə, insanlar bir-bir onlara qoşulur, birlikdə irəliyə doğru addımlamağa başlayırlar. Addımladıqca, xalq ölkəmizdə gedən yeni quruculuq prosesinin uğurlarını dilə gətirir. Beləliklə, uzun bir yolun işıqla dolu mənzilini gedən





xalq, ölkə prezidentinin arxasında böyük izdihama çevrilir. İzdiham irəlilədikcə, Azərbaycan adlanan bu meydan anbaan nura qərq olur.

**VII Çıraqlı**

And içib Kitaba, öpüb bayrağı,
Sonsuz zirvələrə ucalan İnsan!
Sənin gəlişinlə doğdu al səhər...
Ən yeni bir tarix başladı cahan!

**I Vətən Oğlu**

Vətən torpağına nur kimi saçdın!
Sənin işığına büründü millət!
Tarixdə Sən yeni səhifə açdın!
Yenidən parladı qurulmuş dövlət!..

## I Vətən Qızı

Qürurun, vüqarın, möhtəşəmliyin,
Xalqın şərəfinə şöhrət gətirdi!
Ulu Öndərimiz Heydərdən sonra
Səni bu millətə Tanri yetirdi!

## VIII Çıraqlı

Tanrıdan aldığın nurla, işıqla
Hər yandan görünür Sənin qüdrətin!
Cahanda hamını heyran qoyubdur
İncə ilmələnən mərd siyasətin!

## IX Çıraqlı

Bütün kainatı gəzdi sorağın,
Şöhrətin ən uca zirvəyə çatdı!
Göylərə yüksələn uca bayrağın
Bizdə gələcəyə inam yaratdı!





## IV Çıraqlı

Tanrı yazan taleni,
Şərəflə başa vurdu.
Ürəklərdə, qəlblərdə,
Böyük abidə qurdu.

## V Çıraqlı

Hələ sona yetməmiş
Əməli, sözü qaldı.
Tarixin yaddaşında,
Silinməz izi qaldı.

## VI Çıraqlı

Günəş kimi parlayan,
Amalları yaşayır.
Vətənin taleyini,
Gələcəyə daşıyır.

## X o r

Müstəqil Vətənimiz,
İşıqlı, nurlu sabah!
Onu Heydər yaratdı!
Sabaha İLHAMLA bax!

## İ l h a m Ə l i y e v

*(xalqı salamlayır. Hamı ona diqqət kəsilir)*

Mənim əziz millətim!
Mənim sevimli xalqım!
Qoy hər tərəf eşitsin,
Hamı fikrimi bilsin! –
Sizə böyük sevgim var!
Sonsuz məhəbbətim var!
Buna əmin olun ki,
Mənə olan etimad
Cavabsız qalmayacaq!
Arzular solmayacaq!
Haqsızlıq olmayacaq!





And içmişəm Kitaba,
Mən öpmüşəm bayrağı.
Sizə söz verirəm ki,
Heydər Əliyev kimi
Quracam, yaradacam.
Hər sadə vətəndaşın
Prezidenti olacam!

Xalqın sürəkli alqışları ilə qarşılanan bu çıxışdan sonra ölkə prezidentı və onun xanımı, ətrafa yayılan bayram ruhlu musiqi sədaları altında insanların içinə qarışır.

## T a r i x

Yeni dövr başladı,
Yeni Azərbaycanda!
Bir canlanma yarandı,
Hər tərəfdə, hər yanda!
Yeni bir yol yaratdı,
Yeni ruhlu insanlar!

Yeni ruhla verildi,
Bütün şanlı fərmanlar!
Zirvələrə yaraşdı
Xalqın yeni imzası!
Yeni Azərbaycanın
Yeni ömür dünyası!
Yeni bir vüsət aldı,
Şəhərimiz, kəndimiz.
Yeni ruhla quruldu,
Bəşəri yolbəndimiz.

Ölkə prezidentı və ölkənin birinci xanımı, xalq kütləsi ilə bərabər şəhərin küçələrini gəzərək, Heydər Əliyev Fondunun qarçısına gəlirlər. Mehriban xanım Əliyeva Fondun qarşısında qurulmuş kürsüyə qalxır. Üzünü xalqa tutaraq səslənir.

**Mehriban Əliyeva**

Heydər Əliyev Fondu
Min diləkdən yarandı.





**II Vətən Oğlu**

Sənin təfəkkürün, ağlın, idrakın
Dostu sevindirdi, düşməni kəsdi!
Məğrur addımların sonsuz qürurla
Xoş günə can atdı, sülhə tələsdi!

**X Çıraqlı**

Ucal, ucaldıqca, biz də ucalaq!
Millətlər içində izimiz qalsın!
Heydər Əliyevin bəxş elədiyi
Sönməz ilhamını xalq səndən alsın!

**Xor**

Ucal, ucaldıqca, biz də ucalaq!
Millətlər içində izimiz qalsın!
Heydər Əliyevin bəxş elədiyi,
Sönməz ilhamını xalq səndən alsın!

## II Vətən Qızı

*(izdihamdakı insanların səsi getdikcə daha gur vüsət alır)*

Ey möhtərəm Prezident!
Ali Baş Komandanım!
Cənab İlham Əliyev!
Sən nurlu insanların
Ziyasından yoğruldun!..
Tanrısından güc alan,
And yerinə ucalan,
Mənalı həyat görən,
Alnı açıq, üzü ağ,
Şərəfli ömür sürən,
Fenomenə çevrilən,
Sevildikcə, sevilən
Cüt qaynayan bulağın
Şirin zümzüməsindən!..





## III Vətən Oğlu

Arzusu, amalıyla
Buludlara söykənən
Əlçatmaz qübbələrə,
Zirvələrə boy verən,
Qoşa yüksələn dağın
Məğrur əzəmətindən!..

## XI Çıraqlı

Millət, Vətən yolunda
Hər əzaba qatlaşan,
Keçilməz sədlər aşan,
Zülməti yarıb keçən,
Haqqı nahaqdan seçən,
Kimsəsizə, məzluma,
Fağıra arxa duran,
İşıqlı duyğuların
Parlaq şölələrinin,
Həqiqət hikmətinin
Şanlı təntənəsindən!..

## XII Çıraqlı

Poladdan daha kəskin
Yenilməz cəsarətin,
Müzəffər dəyanətin,
Sarsılmaz sədaqətin,
Ən ülvi məhəbbətin
Təmiz, saf niyyətindən!..

## III Vətən Qızı

Azərbaycan Himninin,
Tökülən qanı kəsən
Qurtuluş məşəlinin,
Azadlıq yolu gedən,
Səadətlər bəxş edən
Üçrəngli bayrağının,
Cahan boyu boy atan
Məhəbbət Günəşinin
Nurlu şəfəqlərindən!..





## IV Vətən Oğlu

Təbiətə, insana
Uca Tanrıdan gələn
Ən müqəddəs hisslərin
Ali meyarlarının
Əfsanəvi bətnindən!..

## I Çıraqlı

Nyu-Yorkun, Bernin, Bonnun,
Parisin,Vaşinqtonun,
Tokionun, Oslonun,
Afinanın, Londonun,
İstanbulun, Təbrizin,
Qahirənin, Tiflisin.

**II Çıraqlı**

Romanın, Vatikanın,
Berlinin, Ankaranın,
Pekinin, Moskvanın,
Vyananın, Tehranın.

**IV Vətən Qızı**

Bir söz, bütün cahanın
Sinəsiylə yol gedən,
Sabaha meydan açan
Əzmli addımların,
Dünyanı heyran qoyan
Mətin dəyanətindən!..

**I Vətən Oğlu**

Möhtəşəm salonlarda
Ən ali kürsülərdən





Sülhə, səmimiyyətə,
Haqqa və ədalətə,
Düz yola, xoş niyyətə,
Həqiqətə çağıran,
Cahan boyu yayılan
Haqq dolu gur səsindən,
İşığından doğuldun!..

**III Çıraqlı**

...İşığından doğuldun,
Doğma Vətənimizin,
Şərəfli xalqımızın,
Əziz millətimizin
Gələcəyə yollanan
Kəşməkəşli yolunda.
Torpaq, Vətən eşqiylə
Çadırlarda yaşayan,
Dözülməz dərd daşıyan,
Sonuncu döyüşədək
Əziyyətə qatlaşan,

Sənə ümid bəsləyən
Milyonlarla insanın
İnamlı gözlərində.

## IV Çıraqlı

Müstəqil ölkəmizin
Sönməz həyat eşqilə
Yenidən pərvazlanan,
Günbəgün çiçəklənən,
Qurulan, yaradılan
Kəndində, şəhərində,
Çölündə, çəmənində,
Dağlarında, düzündə,
Nağıllı nənələrin,
Nurani babaların
Bal ətirli sözündə.





## I Vətən Qızı

Elmin, mədəniyyətin,
Təhsilin və idmanın,
Səhiyyənin özündə.

## V Çıraqlı

Müasir memarlığın
Üslubunda tikilən
Minlərlə məktəblərə
Qürurla ayaq açan
Körpələrin üzündə,
Təpədən dırnağadək
Ziya dolu, nur dolu
İşıqlı sabah oldun!..

## VI Çıraqlı

İşıqlı sabahınla,
Sevgi, məhəbbətinlə
Ürəklərə, qəlblərə
Cığır açdın, yol açdın,
Parlaq şəfəqlərinlə
Sən könüllərə doldun!..

## II Vətən Oğlu

Sən könüllərə doldun,
Ümummilli Öndərin,
O qüdrətli memarın
Qurduğu, yaratdığı
Müstəqil ölkəmizdə
Sən özün memar oldun!





## Xor

Müstəqil ölkəmizdə
Sən özün memar oldun!

Öndə cənab İlham Əliyev və xanım Mehriban Əliyeva, arxada isə xalq kütləsi böyük izdihamla irəlilədikcə, qarşıda sonu görünməyən parlaq, işıqlı bir yol uzanır. Meydanda görünən hər bir şey, o cümlədən böyük palıd ağacı işığa qərq olur. Meydandakı ocaq daha da gur yanır.

SON.

*Bakı – may, 2011-ci il.*



# 29 DEKABR 2011-Cİ İL. BEYLƏQAN RAYONUNDA KEÇİRİLƏN TAMAŞANIN PREMYERASINDAN FOTO GÖRÜNTÜLƏR

















































































# TAMAŞA KÜRDƏMİR RAYON SAKİNLƏRİ QARŞISINDA





























































## YEKUN SÖZ: – "İŞIQLI, NURLU SABAH" MƏNZUM TARİXİ PYESİ BİR TARİXƏ ÇEVRİLDİ

5000 illik tariximizi, onun keşməkeşli dövrlərini, dövlətçilik uğrunda gedən mübarizələri, onun saxlanması, inkişaf etdirilməsində əsrlər boyu keçilən hadi-

sələrdən son müstəqilliyimiz dövründəki dövlətimizin, Ulu Öndərimizin fəaliyyətini çox təzadlı dövrlə müqayisədə və müstəqilliyimizin ikinci mərhələsində Ulu Öndərimizin siyasətini ləyaqətlə həyata keçirən Prezidentimizin fəaliyyətini bu qədər yeni bir tərzdə təqdim etdikləri üçün C. Cabbarlı adına İrəvan Dövlət Azərbaycan Dram Teatrının kollektivinə və onun rəhbəri İvtixar Piriyevə öz dərin təşəkkürümü bildirirəm. Bu qədər hadisələri çox mənalı, məzmunlu, fəlsəfi mahiyyəti ilə zəngin olan bir nəzmə, pyesə yerləşdirmək böyük bir istedadın məhsuludur.

Mən bunun üçün İvtixar müəllimə öz böyük təşəkkürümü, minnətdarlığımı bildirmək istəyirəm. Bu çox böyük bir hadisədir. Təsəvvür edirsiniz, sözün əsl mənasında bir il yarım bundan əvvəl biz bu ideyanın ətrafında toplaşanda, yəni işləyəndə mən təklif eləmiş-





dim ki, bu 5000 illik tariximizi gəlin bir başqa mənada, bir başqa məzmunda ortaya çıxaraq, yəni teatrlaşdıraq. İvtixar müəllim özünəməxsus təmkinlə getdi, sonra böyük bir mənzum əsərlə, çox böyük bir zəhmətin nəticəsi ilə gəldi. Uzun müddət gecə-gündüz bu əsərin üzərində işlənildi. Bu gün tamaşaya baxdıqdan sonra isə düzünü deyim ki, mən öz heyrətimi gizlədə bilmədim. Nə qədər möhtəşəm, nə qədər gözəl yazılıb, yaradılıb. İkinci bir tərəfdən də yaradıcı heyət bu hadisələri nə qədər gözəl əks etdirə bilib. Dekabr ayı olduqca yadda qalan unudulmaz hadisələrlə zəngindir. Birinci, Ulu Öndərimizin əbədiyyətə qovuşma tarixi... Amma, o getdisə də siyasəti qaldı, Azərbaycan qaldı, Müstəqil Azərbaycanın gələcəyi qaldı. Azərbaycanın gələcəyi həmişə Heydər Əliyevin o işıqlı yolu ilə, Ulu Öndərimizin qoyduğu yol ilə gedəcək. İkinci mühüm tarix – öz

dövrünün siyasətçilərinin arasında çox fərqli bir mövqeyi olan, böyük təfəkkür sahibi, fərqli praqmatik bir siyasət həyata keçirən İlham Əliyevin ad günüdür. Eyni zamanda bu iki dahi Azərbaycanın son dövründə başına gələn hadisələrdən çıxarılması üçün, Azərbaycan xalqının bütün imkanlarını hərəkətə gətirmək naminə çalışdı, azərbaycanlıların Həmrəylik Gününün təsis edilməsinin zəruriliyi ortaya çıxdı və o günü də yaratdılar.

Bu üç tarixi hadisənin hamısı bu əsərdə toplanıb. Əslində bu çox böyük bir xidmətdir. Bu xidmət Azərbaycana heç vaxt olmdığından indi daha çox lazımdır. Dünyada gedən hadisələrdə, dünyanın böyük dövlətlərinin həyata keçirdiyi siyasət meydanında Azərbaycan xalqı həmişə olduğundan daha mükəmməl, daha dəqiq bir yumruq kimi birləşməli, daha həmrəy olmalıdır. Bu





əsər Azərbaycanın keçmişini, onun bu gününü və gələcəyini çox aydın göstərir.

Bu bayramlar münasibətilə icazə verin sizin hamınızın adından, bütün Beyləqanlılar adından, cənab Prezidentimizi 50 yaşı münasibətilə səmimi qəlbdən təbrik edək, ona uzun ömür, can sağlığı arzulayaq. Bu gün göstərilən o işıqlı nurlu gələcəyə öz siyasəti ilə uğurla getsin, daha uzaqlara getsin, şübhəsiz ki, onun hər bir uğuru bizim hamımızın uğurudur, vətənimizin, xalqımızın, dövlətimizin uğurudur.

Eyni zamanda arzu edirəm ki, Dünya Azərbaycanlılarının Həmrəylik Günündə sizin hər biriniz millət üçün, dövlət üçün, xalq üçün daha böyük işlər görəsiniz, xalqımızın qarşısına vətənpərvər ruhlu, yüksək keyfiyyətli, başımızı uca edən yeni layihələrlə çıxasınız.

*İrşad Əliyev*



# MÜNDƏRİCAT

MÜƏLLİF SÖZÜ ....................15

Birinci hissə ....................26

İkinci hissə ....................78

29 DEKABR 2011-Cİ İL. BEYLƏQAN RAYONUNDA KEÇİRİLƏN TAMAŞANIN PREMYERASINDAN FOTO GÖRÜNTÜLƏR ....................103

TAMAŞA KÜRDƏMİR RAYON SAKİNLƏRİ QARŞISINDA ....................124

YEKUN SÖZ: – "İŞIQLI, NURLU SABAH" MƏNZUM TARİXİ PYESİ BİR TARİXƏ ÇEVRİLDİ ....................143



**İFTİXAR**
*(İvtixar Fəhrat oğlu Piriyev)*

## «İŞIQLI, NURLU SABAH...

*(ikihissəli publisistik, xronikal, mənzum dastan)*

RƏSSAM
***Arif Hüseynov***
*(Xalq rəssamı)*

XÜSUSİ REDAKTOR
***Nərminə Ağayeva***
*(Sənətşünaslıq üzrə fəlsəfə doktoru)*

NƏŞRİYYAT REDAKTORU
***Həqiqət Eldarova***

DİZAYN
***Səbinə Məmmədova***

*Çapa imzalanmış 17.04.2013,*
*Format 60x90 1/16, fiz.ç.v. 9,5*
*kağız təbaşirli N1,*
*qarnitura Tayms,*
*sifariş 17. Tiraj 1000 ədəd.*

*Kitab*
**«APOSTROFF»**
*(Tel: 050-313-07-06 / 012-432-51-04*
*E-mail: akif0706@mail.ru)*
*nəşriyyatında nəşrə hazırlanmış*
*və*
*ofset üsulu ilə çap olunmuşdur.*
AZ1122, Bakı, H. Zərdabi, 71A.